

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 158 (24.045)

23 avqust 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülmək çox böyük nailiyyətdir. Bu nailiyyət onu göstərir ki, bizim əvvəlki uğurlarımız təsadüfi xarakter daşımırdı. Bildiyiniz kimi, beş il bundan əvvəl Bakıda IV İslam Həmrəyliyi Oyunlarında komandamız birinci yerə layiq görülmüşdür. Bu da təbiidir. Çünki öz doğma divarları həmişə idmançılara əlavə kömək göstərir. Bu dəfə isə çox gərgin mübarizə nəticəsində biz dördüncü yerə layiq görüldük. Onu da bildirməliyəm ki, oyunlarda ölkələrin ən güclü idmançıları iştirak edirdilər. Bizim idmançılarımız 99 medal qazanaraq, – onlardan 29-u qızıl medaldır, – bir daha ölkəmizin gücünü göstərmişlər.

Mən sizinlə oyunların açılış günündə Konyada görüş əsnasında əmin olduğumu bildirmişdim ki, siz ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz. Şadam ki, belə də oldu. Bir daha nəinki bütün müsəlman aləmi, bütün dünya idmançılarımızın gücünü gördü. Hər dəfə Bayrağımız qaldırılanda, Himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır. Mən sizinlə Konyada görüş zamanı demişdim ki, sizin üzərinizə əlavə məsuliyyət düşür. Çünki siz bu oyunlarda qalib ölkəni təmsil edəcəksiniz. Bu həm çox qürurverici amildir, eyni zamanda, böyük məsuliyyətdir. Bu məsuliyyəti dərk edərək siz ölkəmizi ləyaqətlə təmsil etmisiniz.

Sonda xatirə şəkli çəkdirilib.

## “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 30-cu ildönümü 5-ci sərhəd zastavası üçün yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi ilə qeyd olunub





Avqustun 22-də – “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 30-cu ildönümündə 5-ci sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.

Bildirilmişdir ki, 5-ci sərhəd zastavası 1932-ci ildən fəaliyyət göstərir və xidmət sahəsi 9 kilometrdir. Yeni xidmət və yaşayış kompleksinin inşasına 2021-ci ilin sentyabr ayında başlanılmışdır. İkimərtəbəli qərargah binasında əsgərlər üçün 40, subay zabitlər üçün 8 yerlik yataqxana, sinif, silah, rabitə və 3 iş otağı, 28 yerlik yeməkxana, ərzaq və tərəvəz anbarları, qurutma otağı və sığınacaq yerləşir. Ərazidəki yardımçı binada camaşırxana, mərkəzi qazanxana, 2 avtomobil saxlancı, əşya, yanacaq-sürtkü materialları və silah anbarları vardır.

Zastavada 12 sabit və 3 idarəolunan kameralı videomüşahidə sistemi, IP telefon, müşahidə qülləsində 2 ədəd 1000 metr radiuslu projektor, xidməti ərazidə 9000 metr məsafədə mühəndis-texniki çəpər və işarəverici qurğu quraşdırılmış, sərhəd yolları yenidən çəkilmiş və çınqıl örtüyü ilə bərkidilmişdir. 4 müşahidə qülləsi, 1 isinmə məntəqəsi və 2 körpü əsaslı təmir olunmuşdur.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşərək demişdir: Bu gün xidməti-yaşayış kompleksi istifadəyə verilir. Burada həm şəxsi heyət üçün xidməti şərait, həm də zabit, gizir ailələri üçün lazımi yaşayış şəraiti yaradılıb. Bu da imkan verir ki, xidmət yaxşı təşkil olunsun. Əgər ailənin şəraiti yaxşıdırsa, deməli, xidmət də yaxşı təşkil olunacaq. Bu gün istifadəyə verilən xidməti-yaşayış kompleksində ailələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün lazım olan bütün şərait yaradılıb. Burada, eyni zamanda mənzillər lazımi mebel, məişət avadanlıqları ilə də təmin olunub. Bütün bunlar Azərbaycan dövlətinin öz ordusuna olan diqqətidir. Ölkəmizin hər bir yerində zabit ailələrinə həm xidməti dövründə, həm də xidmətdən sonrakı illərdə diqqət göstərilir, onlar dövlətin qayğısı ilə əhatə olunurlar. 20 il qüsursuz xidmət edənlərə mənzillər verilir, bir sözlə, zabit ailələri, bu gün orduda xidmət edən hər kəs dövlətin qayğısını hiss edir. Ona görə də yaradılan şəraitin qarşılığında xidmət lazımi səviyyədə aparılmalı, dövlət sərhədlərinin möhkəmliyi təmin olunmalıdır.



Ali Məclisin Sədri sərhədçi ailələrini yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik etmiş, onlara rahat həyat arzulamışdır.

Sərhədçi ailələri adından minnətdarlıq edən Əminə Əhmədova demişdir: “Sərhədçi ailələrinə göstərilən yüksək qayğı sayəsində ailə-məişət şəraitimiz xeyli yaxşılaşdırılıb. Bu gün yeni yaşayış binası istifadəmizə verilir. Görülən işlər, yaradılan şərait rahat yaşayışımızı təmin edir”.

Ali Məclisin Sədri sərhədçi uşaqlarına hədiyyələr təqdim etmiş, onlardan Xavər Həsənli ulu öndər Heydər Əliyevə həsr olunmuş şeir söyləmişdir.

Ali Məclisin Sədri mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur. Bildirilmişdir ki, hərbi qulluqçuların ailələri üçün nəzərdə tutulmuş 2 mərtəbəli yaşayış binası hər biri 2 otaqlı olmaqla, 8 mənzildən ibarətdir. Mənzillər mebel dəstləri, televizor, soyuducu, paltaryuyan və mərkəzləşmiş istilik sistemi ilə təmin olunmuşdur. Mənzillə təmin olunan ailələrə meyvə, tərəvəz və ərzaq payları verilmişdir.

Sonra şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlamış, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 30-cu ildönümü və 5-ci sərhəd zastavası üçün yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətini və sərhədçi ailələrini təbrik edərək demişdir: Azərbaycanda sərhəd qoşunlarının yaradılmasına ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə

Ardı 2-ci səhifədə





1990-1993-cü illərdə Naxçıvanda başlanılmışdır. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırılmış və bununla da ilk milli sərhəd dəstəsinin təməli qoyulmuşdur. Həmin il sentyabrın 19-da isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi “Naxçıvan Muxtar



Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul etmiş, bu qərardan 10 gün sonra – sentyabrın 29-da Sovetlər Birliyinin muxtar respublikadakı 41-ci sərhəd dəstəsi ləğv olunmuş və onun funksiyaları, bütün hərbi və təsərrüfat əmlakı 1-ci sərhəd dəstəsinə təhvil verilmişdir. 1992-ci ilin oktyabrında birinci sərhəd dəstəsində keçirilən andiçmə mərasimində ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Biz bu gün çox böyük məmnuniyyət hissi ilə müstəqil Azərbaycan dövlətində Sərhəd Qoşunlarının yaradılmasını məhz buradan, Naxçıvandan, Azərbaycanın bu qədim diyarından başlandığını qeyd edirik. Azərbaycanın digər sərhədlərindən fərqli olaraq burada keçmiş Sovetlər İttifaqına, ondan sonra isə Rusiya dövlətinə mənsub olan sərhəd qoşunu hissələri bir ay öncə muxtar respublikadan çıxarılmış, onların bütün silahları, hərbi texnikası, sursatları, bütün əmlakı, binaları Naxçıvanda yaradılmış birinci sərhəd dəstəsinin sərəncamına verilmişdir”.***

Ali Məclisin Sədri demişdir: Ulu öndər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da ordu quruculuğu işinə və onun tərkib hissəsi olaraq sərhəd qoşunlarının formalaşmasına xüsusi diqqət yetirmişdir. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında da sərhədlərimizin mühafizəsi ilə bağlı ardıcıl tədbirlər görülmüş, Sərhəd Dəstəsindən Əlahiddə Sərhəd Diviziyasına qədər böyük yol keçilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanları ilə 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası yaradılmış, 2015-ci ildə Sərhəd Diviziyası “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına çevrilmişdir. Müstəqillik illərində muxtar respublikada həyata keçirilən ordu quruculuğu tədbirləri “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasını da əhatə etmişdir. Diviziyada xidməti-döyüş fəaliyyəti ilə yanaşı, geniş quruculuq işləri də aparılmış, mərkəzi qərargah, 15 sərhəd zastavası və 2 sərhəd komendantlığı üçün yeni yaşayış və xidmət kompleksi istifadəyə verilmişdir. Yaradılan şəraitə uyğun olaraq diviziyada xidmət də hərbi nizamnamənin tələblərinə uyğun qurulmuş, şəxsi heyətin peşəkarlığı artırılmışdır. Bu gün Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasındakı 234 kilometrlik dövlət sərhədi etibarlı mühafizə olunur.

Ali Məclisin Sədri sərhədlərimizi etibarlı mühafizə etdiklərinə görə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Sərhəd qoşunlarının şəxsi heyəti Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin etmək üçün nə qədər böyük məsuliyyət daşıdıqlarını daim düşünməli, bu məsuliyyətin***



***qarşısında cavabdehliklərini bilməlidirlər”.*** Ulu öndərin tövsiyələrinə uyğun olaraq “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası bundan sonra da sərhəd rejim qaydalarını və əməliyyat şəraitini daim nəzarətdə saxlamalı, sərhədçi adının şərəfi uca tutulmalıdır. Sərhədləri etibarlı mühafizə olunan ölkədə sabitlik, təhlükəsizlik və inkişaf da davamlı olur. Ona görə də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti yaradılan şəraitdən, müasir texnika və avadanlıqlardan səmərəli istifadə edərək qaçaqmalçılığa və digər qanun pozucularına qarşı qətiyyətlə mübarizə aparmalı, xidməti-döyüş fəaliyyətini daha da gücləndirməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında və gələcək xidmətdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə uğurlar arzulamış, diviziyanın yaranmasının 30 illiyi və yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə bir daha təbrik etmişdir.



“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə edilən dinamik inkişaf, o cümlədən ordu quruculuğuna olan xüsusi diqqət və qayğı “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının fəaliyyətinə də öz müsbət təsirini göstərmişdir. 5-ci sərhəd zastavası üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Niyaməddin Tağıyev “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaradılmasının 30-cu ildönümündə 5-ci sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsində iştirak etdiyinə görə şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, göstərilən qayğıdan və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da muxtar respublikada sərhədlərimizin etibarlı mühafizəsini təmin edəcəklərinə söz vermişdir.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirmişdir.

Əsgər Təbriz Fərəcli minnətdarlıq edərək demişdir: “Yaradılan şəraitin qarşılığında biz də Vətən sərhədlərini göz bəbəyimiz kimi qoruyacaq, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcək, xidmətimizlə göstərilən etimadı doğruldacağıq”.

Ali Məclisin Sədri sərhədçilərlə xatirə şəkli çəkdirmiş, onlarla səmimi söhbət edərək demişdir: Vaxtilə Sovetlər Birliyi dövründə burada zastava tikilmiş, lakin yenilənməmişdi. Bu gün isə müstəqil Azərbaycan dövləti öz əsgəri, zabiti, onun xidməti və sərhədçi ailələri üçün lazım olan bütün şəraiti yaradıb. Ona görə də hər bir vətəndaş dövlətimizin, eyni zamanda müstəqilliyimizin möhkəmlənməsi üçün öz vəzifələrini layiqincə yerinə yetirməlidir. Bu gün 5-ci sərhəd zastavasında nümunəvi, ideal şərait yaradılıb. Qurulanlar qorunmalıdır ki, sizdən sonra gələnlər də bu şəraitdə xidmət edə bilsinlər və zastava uzun illər öz fəaliyyətini bu səviyyədə davam etdirsin. Yaradılan şərait xidmətin daha rahat və etibarlı təşkilinə imkan verəcək. Sərhədçi adını daşımaq şərəflidir. Bu adı həmişə qoruyub saxlamaq lazımdır.

Zastavada sıra meydanı, voleybol və futbol meydançası, idman və ləpirçilik şəhərciyi, atəş, mühəndis hazırlığı, xidməti heyvanların təlim yeri, tək əsgərin nəzarət zolağı olan təlim şəhərciyi yaradılmışdır. Həmçinin burada yeraltı sığınacaq və müdafiə səngərləri, istirahət və uşaq əyləncə yerləri, nəzarət-buraxılış məntəqəsi, avtomobillərin yuyulması yeri, helikopter meydançası, 63 kilovatlıq transformator və 30 kilovatlıq elektrik generatoru qurulmuşdur. 6 hektar ərazidə abadlıq işləri aparılmış, 2 subartezian quyusu qazılaraq 3 nasos quraşdırılmış, 2,5 hektar sahədə yaşıllıq salınmışdır.

Ali Məclisin Sədri yaradılan şəraitə uyğun xidmətin təşkili, ərazidə meyvə ağaclarının artırılması barədə müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilmişdir.

## Alışar kənd tam orta məktəbində müasir tədris şəraiti yaradılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“...bugünkü dünyada savad, bilik hər şeyi müəyyən edir. Əgər hər hansı bir insan öz həyatını yaxşı qurmaq istəyirsə, gələcəkdə cəmiyyətdə yaxşı yer tutmaq istəyirsə, mütləq yaxşı oxumalıdır. Yaxşı oxumaq üçün bütün şərait var”.*** Bu gün ulu öndərin müəllifi olduğu təhsil strategiyası ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında bu sahənin hərtərəfli yüksəlişi, tərəqqisi, maddi-texniki cəhətdən möhkəmlənməsi, dünya standartlarına uyğun təhsil ocaqlarının qurulması təmin edilir.

*Ardı 3-cü səhifədə*



Avqustun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur rayonunun Alışar kənd məktəbində aparılan tikinti işlərinə baxmışdır.

Bildirilmişdir ki, 2 mərtəbədən ibarət olacaq 342 şagird yerlik məktəb binasında yenidənqurma işləri yekunlaşmaq üzrədir. Müasir standartlara cavab verəcək təhsil ocağında nümunəvi şərait yaradılır. Burada 19 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, elektron lövhəli sinif, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, STEAM kabinəsi, kitabxana, qarderob, idman zalı və digər texniki otaqlar nəzərdə tutulmuşdur. Yenidənqurma işləri zamanı binaya iki korpus əlavə edilmişdir. Binanın həyətində bufet, qazanxana tikilir, idman qurğuları quraşdırılacaq, yaşıllaşdırma işləri həyata keçiriləcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Sakinlərlə görüş keçirilmişdir

Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işləri sürətlə davam etdirilir, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni binalar tikilir, köhnə binalar isə əsaslı təmir-bərpa işlərindən sonra sakinlərin istifadəsinə verilir. Əziz Əliyev küçəsindəki 6 nömrəli yaşayış binasına da quruculuq tədbirlərindən pay düşmüşdür. 1990-cı ildə istifadəyə





verilmiş bu yaşayış binasında ötən ilin iyul ayından başlayaraq əsaslı təmir işləri aparılmış, binanın təməli möhkəmləndirilmiş, zirzəmi hissə və bloklar tam təmir olunmuş, pilləkənlərə mərmər daş döşənmişdir. 4 girişli, 40 mənzilli binanın dam örtüyü, giriş qapıları, pəncərələri dəyişilmiş, kommunikasiya xətləri yenilənmiş, lazımi kommunal şərait yaradılmışdır.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov binanın sakinləri ilə görüşmüş, yaradılan şəraitlə tanış olmuşdur. İcra başçısı bildirmişdir ki, Naxçıvan şəhərinin gözəlliyinə hər gün yeni çalarlar əlavə olunur. Yeni binalar, yaşayış kompleksləri inşa edilir, köhnə binalara yeni həyat verilir. Bütün bu işlər ulu öndər Heydər Əliyevin quruculuq siyasətinin Naxçıvanda uğurla həyata keçirildiyini göstərir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə təmir olunan bu yaraşıqlı bina da həmin siyasətin bəhrəsidir. Muxtar respublikamızda, həmçinin Naxçıvan şəhərində görülən bütün bu işlər əhalinin rahatlığı, firavan həyatı üçündür.

Qeyd olunmuşdur ki, qurub-yaratmaq işin bir tərəfidir. Əsas məsələ qurulanları, yaradılanları qorumaq və gələcək nəsillərə olduğu kimi çatdırmaqdır. İnanırıq ki, həm binada, həm də ətraf ərazidə yaradılan səliqə-sahman sakinlər tərəfindən qorunacaq və şəhərimizin gözəlliyinə heç bir xələl gəlməyəcəkdir.

Sonra Naxçıvan Şəhər Polis İdarəsinin rəis müavini, polis mayoru Elvin Səfərli çıxış edərək təmir olunan binanın şəhərimizə xüsusi gözəllik bəxş etdiyini bildirmiş və bu gözəlliyi hamılıqla qorumağın vacibliyindən danışmışdır.

Təmir olunan binanın sakinləri yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

**Qafar QƏRİB**

## Növbəti aktivlərin verilməsi davam etdirilir

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi publik hüquqi şəxs və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair imzalanmış memoranduma uyğun olaraq belə qrupa daxil olan daha 1 nəfər aktivlə təmin edilmişdir. Beləliklə, proqrama cəlb edilən şəxslərin sayı 28-ə çatdırılmışdır.

Yeni aktivlər "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialı tərəfindən Naxçıvan şəhər sakini Nazim Əliyevə məşğulluğunun təmin olunması məqsədilə istehsal-xidmət sahəsi üzrə verilib.

Memoranduma əsasən agentliyin mərkəzlərinə müraciət edən sağlamlıq imkanları məhdud şəxslər, aztəminatlı ailələr, sosial qayğıya ehtiyacı olan şəhid və qazi ailələri barədə məlumatlar əsasında muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müxtəlif fəaliyyət sahələrinə uyğun aktivlərin verilməsi təmin edilir.

İndiyədək verilən aktivlər kənd təsərrüfatı istiqaməti üzrə maldarlıq, istehsal-xidmət sahələrindən avtoçilingər xidməti, avtomobil şinlərinin təmiri, kiçik dülgər sexi, kiçik fotoatelye, qadın gözəllik salonu, telefon təmiri avadanlıqları, yerşumlayan aqreqat və kiçik dərzi sexi sahələrində təqdim olunmuşdur.

***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi***

## Mühasiblər üçün təlim başa çatıb

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Maliyyə hesabatlarının beynəlxalq standartlar əsasında tərtib və təqdim edilməsi" adlı ikigünlük təlim keçirilib.*



Muxtar respublikanın təhsil sahəsində fəaliyyət göstərən 20 maliyyə-mühasibatlıq işçisinin iştirak etdiyi tədbiri mərkəzin direktoru Mehriban İmanova açıb.

Təlimin ilk günü Maliyyə Tədris Mərkəzinin əməkdaşı Həsən Abdullayevin "Maliyyə hesabatlarının tərtib edilməsinin nəzəri əsasları" mövzusu ətrafında təqdimatı olub.

Təqdimat zamanı maliyyə hesabatlarının mühasibat uçotu subyektinin maliyyə-təsərrüfat fəaliyyəti, həmçinin maliyyə vəziyyəti barədə sistemləşdirilmiş məlumatları özündə əks etdiriyi və bu məlumatların daxili və xarici istifadəçilər üçün xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Növbəti gün "Maliyyə hesabatlarının tərtib edilməsinin praktik izahı" modulu ətrafında Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əməkdaşı Pərvin Cümşüdova müəssisədə əməliyyat jurnalının hazırlanması, maliyyə hesabatlarının tərtib olunmasını müvafiq praktik tapşırıqlar əsasında izah edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Torpaqların su təminatının yaxşılaşdırılması diqqət mərkəzindədir

İyul ayında suvarma mövsümünü mütəşəkkil keçirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabe təşkilatları tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri davam etdirilmiş, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüşdür. Hidrotexniki qurğularda təmir işləri yerinə yetirilmiş, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və su ehtiyatlarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadəyə nəzarət edilmişdir. Mövcud su anbarlarında iyul ayının sonuna 100,31 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə ötən ay 27,21 milyon kubmetr su verilmiş, 22 min 958 hektar torpaq sahəsinin suvarılması təmin olunmuşdur.



Hesabat ayında 0,08 kilometr istiqamətləndirici bənd tikilmiş, 8 kilometr beton və torpaq kanal, 15,33 kilometr ara arxlar, 1,2 kilometr kollektor lildən təmizlənmişdir. 1,19 kilometr içməli su, 0,21 kilometr kanalizasiya xətti, 8,97 kilometr suvarma, 1,19 kilometr təzyiqli boru xətti çəkilmiş, 0,08 kilometr yeni kaptaj tikilmiş, 3,61 kilometr mövcud içməli su, 0,41 kilometr kanalizasiya, 1,02 kilometr suvarma boru xətlərində, 3,81 kilometr təzyiqli boru xətlərində və 0,97 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, ərazidə 5,26 kilometr paylayıcı xətlər çəkilmiş, 35 supaylayıcı hovuz və hidrant quraşdırılmışdır. Çeşməbasar və Güznüt kəndləri ərazisində 240 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi üçün hamarlanma işləri davam etdirilmiş, boru xətlərinin çəkilməsi üçün qazıntı işləri aparılmışdır.Torpaq sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Babək rayonunda Qahab selovunda 80 metr seləqarşı istiqamətləndirici bənd tikilmişdir. Uzunoba gölünün yaxınlığında olan təpədə yaşıllıq sahəyə fasiləsiz su verilməsi üçün su sərfi saatda 65 kubmetr olan yeni subartezian nasosu quraşdırılmış, müxtəlif diametrli borularla 1,24 kilometr yeni xətt çəkilmişdir. Əshabi-kəhf ziyarətgahına gedən avtomobil yolunun kənarındakı yaşıllıqları Araz Su Anbarından verilən su ilə təmin etmək üçün su sərfi saatda 40 kubmetr olan yeni subartezian nasosu quraşdırılmış və müxtəlif diametrli borularla 2,07 kilometr boru xətti çəkilmişdir.

Şərur rayonunda 13, Sədərək rayonunda 0,9 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi layihəsi çərçivəsində boru xəttinin yerinin hamarlanması və qazıntı işləri davam etdirilmiş, ərazidə 1,19 kilometr təzyiqli boru xətti quraşdırılmışdır. Su anbarlarında mövcud olan su ehtiyatlarından qənaətlə, səmərəli istifadə etmək və su istifadəçilərinin suvarma suyuna olan tələbatının ödənilməsini təmin etmək məqsədilə müvafiq işlər görülmüş, uzun müddət işində fasilə yaranmış Araz çayından qidalanan nasos stansiyaları bərpa olunaraq suvarma suyunun verilməsi təmin edilmişdir.

Ötən dövrdə 5 kəhrizdə təmir-bərpa işlər davam etdirilmiş, quyularda 53 metr təmizləmə, 30 metr çalagərdan hörgü işləri yerinə yetirilmiş, 590 metr kürə lildən təmizlənmiş, 66 metr saybənd hörülmüşdür. 98 suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyuları təmir olunmuşdur. "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Sədərək rayonunda içməli su və kanalizasiya şəbəkəsinin tikintisi cəmiyyətin Su Təmir-Tikinti İdarəsi tərəfindən davam etdirilir. Ərazidə quyularda təmir-bərpa işləri aparılmış, 35 metr kanalizasiya xətti qurulmuş, nasos stansiyasında nasoslar quraşdırılır. Bundan əlavə, Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 3,08 kilometr içməli su xətti çəkilmiş, 4 siyirtmə quyusu tikilmiş, 32 sayğac və 14 havaburaxıcı quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Gənc əməkdaşlarımız təcrübə mübadiləsində



Türkiyədə keçirilən Türk Dövlətləri Təşkilatının Katibliyi üzv və müşahidəçi dövlətlərin 1-ci Çoxtərəfli Gənclik Mübadilə Proqramı (14-21 avqust) başa çatıb. Sədərək Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Fizuli Məhəmməd də Azərbaycan nümayəndə heyətinin tərkibində mübadilə proqramına qoşulub.

Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətini təmsil edən nümayəndə heyətləri proqram çərçivəsində İstanbul və Ankaranın mədəni, tarixi və təbiət yerlərinə səfərlər, gənclər mərkəzlərinə, universitetlərə ziyarətlər, könüllülük fəaliyyətləri, milli təqdimatlar, gənclərlə iş sahəsində fəaliyyət göstərən səlahiyyətli şəxslərlə görüşlər keçiriblər.

Proqramın məqsədi ortaq dilimiz, tariximiz, mədəniyyətimiz və sivilizasiyamız haqqında gəncləri maarifləndirmək, onları gələcəyə ümumi baxışda bir araya gətirmək, dünya və cəmiyyət problemlərinə həssaslıqla yanaşan gənc liderlərin yetişdirilməsinə dəstək olmaq, ölkələr və cəmiyyətlər arasındakı münasibətləri inkişaf etdirmək, mövcud dostluq əlaqələrini gücləndirmək, gənclər arasında komanda ruhunu inkişaf etdirmək, onlar arasında ünsiyyət şəbəkələri və platformalar yaratmaqdan ibarət olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Hər gün yüngül və ağır olmaqla onlarla avtomobil qəzası baş verir. Bu səbəbdən də avtomobillərin sığortalanması zərurəti yaranır ki, bununla bağlı 2011-ci ilin dekabrından ölkədə icbari sığortalar haqqında qanunun tətbiqinə başlanılıb. Qanuna əsasən hər bir avtonəqliyyat vasitəsi icbari qaydada sığortalanmalıdır. Tariflər isə birillik sığortaya görə avtonəqliyyat vasitəsinin növünə, mühərrikinin həcminə və sahibinin fiziki və ya hüquqi şəxs olmasına uyğun olaraq dəyişir. Oktyabrın 1-dən qüvvəyə minəcək yeni qaydaya görə isə sadalananlarla yanaşı, sürücünün yaşı, sürücülük təcrübəsi, bonus-malus güzəştlər sistemi, nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxslərin sayı, nəqliyyat vasitəsinin idarə edildiyi bölgənin yol-nəqliyyat intensivliyi və həmçinin nəqliyyat vasitəsinin istismar müddəti də nəzərə alınacaq. Qeyd edək ki, avtomobillərin icbari sığortasının hesablanması üzrə baza məbləği 50 manat təşkil edir.*

## Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası

Bu məqalədə məhz sözügedən sığorta növü haqqında oxucuları ən çox maraqlandıran sualları cavablandırmağa çalışacağıq. Əvvəlcə baxaq ki, ümumiyyətlə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası nə üçün lazımdır? İcbari nəqliyyat sığortası avtomobil qəzalarında yaranacaq mübahisələrin həllinə və dəymiş zərərin kompensasiya edilməsinə yardım edir.

Bəs bu sığorta növündə hansı hallarda ödəniş həyata keçirilir? İcbari sığorta haqqında qanuna əsasən mülki məsuliyyətini icbari qaydada sığortalamış avtonəqliyyat vasitəsi sahiblərinin təqsiri ucbatından törədilən hadisələr zamanı iki növ zərərə görə ödəniş həyata keçirilməsi nəzərdə tutulur. Bu ödənişlər sağlamlığa və əmlaka vurulmuş zərərə görə təyin olunur. Sağlamlığa dəymiş zərər dedikdə yüngül, az ağır və ağır xəsarətlər, sağlamlıq imkanları məhdudluq dərəcəsinin təyin edilməsi və ölüm halları və digər məsələlər nəzərdə tutulur.

Sadalanan hallarda ödəniş məbləği nə qədər olmalıdır? Qanunvericiliyə əsasən bir sığorta hadisəsi zamanı, ümumilikdə, 50 000 manatdan çox olmamaq şərti ilə, bir fiziki şəxsin sağlamlığına dəyən zərərə görə ödənişin məbləği maksimum 5000 manat təşkil edir və bu məbləğ yalnız ölüm halında tam ödənilir. Digər hallarda isə sağlamlığa yüngül zərər vurulduqda 750 manat, az ağır və ya ağır xəsarət yetirilərsə, 1500 manat ödəniş edilir. Baş vermiş hadisə zamanı şəxsə aldığı xəsarətdən sağlamlıq imkanları məhdudluq dərəcəsi təyin edilərsə, bu zaman təyin edilmiş I, II, III qrup sağlamlıq imkanları məhdudluq dərəcəsinə müvafiq olaraq, 4000, 3000 və 2000 manat məbləğində ödəniş həyata keçirilir. Sığorta hadisəsi zamanı əmlaka vurulan zərərə görə də eynilə maksimum 5000 manat məbləğində ödəniş edilir. Zərər məbləği göstərilən rəqəmdən yüksək olduğu halda zərərin 5000 manatı şəxsə sığorta şirkəti tərəfindən ödənilir, qalan məbləğ isə zərərvuran şəxsdən tələb edilə bilər.

Növbəti suallardan biri də avtomobilin icbari sığortası olmadan idarə edildiyinə görə nəzərdə tutulan cərimələrdir. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən icbari qaydada sığortalanması müəyyən edilmiş fiziki və ya hüquqi şəxslərin icbari sığorta müqaviləsi bağlamamasına görə – fiziki şəxslər 10 manat miqdarında, vəzifəli şəxslər 60 manatdan 80 manatadək miqdarda, hüquqi şəxslər 150 manatdan 200 manatadək miqdarda cərimə edilir.

Bəs sığorta hadisəsi baş verdikdə nə etmək lazımdır? Sığorta hadisəsinin baş verməsi barədə sığortaolunan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və eyni zamanda həmin hadisə barədə Dövlət Yol Polisinə hər hansı vasitə ilə xəbər verməlidir. Qeyd edək ki, noyabrın 1-dən tətbiq ediləcək qaydalara əsasən icbari qaydada sığortalanan nəqliyyat vasitəsinə dəyən ziyanı artıq qarşı tərəfin sığorta şirkəti deyil, sığortalandığı şirkət qarşılayacaq. Başqa sözlə desək, avtomobilə dəyən ziyan avtomobil sahibinin öz sığorta şirkəti tərəfindən kompensasiya ediləcək.

Avtonəqliyyat vasitəsi sığortalarında tətbiq edilən bonus-malus mexanizmi nədir və işimizə necə yarayır? Əvvəlki sığorta müqaviləsi üzrə sığorta predmetinə (sığortaolunana) münasibətdə sığorta riskləri ilə bağlı heç bir hadisə baş vermədiyi halda növbəti sığorta müqaviləsi üzrə sığorta haqlarının azaldılması, sığorta riskləri ilə bağlı hadisələrin baş verdiyi halda isə sığorta haqlarının artırılması üçün baza tarif dərəcələrinə tətbiq edilən bir növ güzəşt-əlavələr sistemidir.

Sığorta şirkəti sığorta ödənişindən nə zaman imtina edə bilər? Sığorta hadisəsinin baş verməsi barədə sığortalının sığortaçıya xəbər verməməsi nəticəsində sığorta hadisəsinin araşdırıla bilməməsi, sığortalının, sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, hadisənin baş verməsinin hərbi əməliyyatlar nəticəsi olması, sığorta müqaviləsinə daxil olmayan digər səbəblər və sair hallarda şirkət ödənişdən imtina etmək hüququna malikdir.

Bəs vətəndaş sığorta şirkətinin verdiyi qərarla razılaşmırsa, hansı addımı atmalıdır və ya ümumiyyətlə, sığorta şirkəti ilə bağlı ziddiyyətlər yaranarsa, hara müraciət etməlidir? Lazımi sənədlər sığortaçıya təqdim edildiyi tarixdən 7 iş günü müddətində sığortaçı sığorta ödənişini verməli və ya ödəniş olmayacaqsa, şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir. Qeyd olunan halda həmin bildiriş ilə nəzarət edən quruma yazılı şəkildə müraciət etmək lazımdır. Muxtar respublikada sığorta bazarlarına nəzarət edən qurum Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsidir.

**Aytac AXUNDOVA**
***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi *vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Sıravi və kiçik rəis heyəti vəzifələrinin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinlik, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndiriləcək.

Müsabiqədə – ali, orta ixtisas və tam orta təhsilli, boyu azı 175 santimetr, yaşı 30-dan aşağı, 20-dən yuxarı olan və müddətli həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq-mühafizə orqanlarında xidmətdən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Sənədlərin qəbulu 2022-ci il avqust ayının 24-dən sentyabr ayının 23-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *ali, orta ixtisas və tam orta təhsil haqqında sənəd (diplomun, attestatın əsli və notarial qaydada təsdiq olunmuş surətləri);*
- *yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*
- *hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *əmək kitabçası (olanlar üçün);*
- *arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*
- *xasiyyətnamə (yaşayış və ya iş yerindən);*
- *nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil.*

İlkin sənədləri sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbula uyğun gələn namizədlərə müvafiq formada ərizə yazmaq təklif olunur.

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

Namizədlər Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün 6 dəfə; qaçış 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin müsabiqə və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim komissiyalarından keçə bilməyən namizədlər müsabiqədən kənarlaşdırılır.

"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155, 156, 160).***

*Azərbaycanda notlu musiqinin formalaşması dahi bəstəkarımız Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Məhz bu dahi korifey sənətkarın 1908-ci ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə əsrlərboyu şifahi ənənələr əsasında formalaşan milli musiqi özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Üzeyir Hacıbəyli "Leyli və Məcnun"dan başlayaraq yaratdığı hər bir əsərində, xüsusilə "Koroğlu" operasında Avropa klassik musiqisindən bəlli olan forma və janrların dərindən mənimsənilməsi məsələsini aktual problem kimi nəzərə çatdırmış, klassik musiqi ənənələrinin öyrənilməsini vacib saymışdır. Dahi bəstəkar belə hesab edirdi ki, Avropa musiqisinin bütün janr və formalarının milli nümunələrinin yaradılması böyük əhəmiyyət daşıyır. Bununla Azərbaycan musiqisinə dünya səhnələrində qısa zamanda yol açmaq olar.*

## Musiqişünaslara dəyərli töhfələr

Uzun illər yalnız rus dilində ədəbiyyatın mövcud olması musiqiçilərimiz üçün xarici ölkə bəstəkarlarının yaradıcılığının öyrənilməsində mühüm problemlər yaratmışdır. Lakin xüsusilə müstəqillik illərində dünya musiqi mədəniyyəti haqqında Azərbaycan dilində ədəbiyyatların yazılması və daha geniş nəşr olunması qısa zamanda bu problemin həllinə öz töhfəsini vermişdir. Qeyd etmək lazımdır ki, Naxçıvanda da bu proses vüsət almağa başlamış, Ruhiyyə Dünyamalıyeva, Rumiyyə Qasımovanın "Musiqi tarixi" dərsliyi Azərbaycan dilində nəşr olunan ilk kitablardan biri kimi oxucu kütləsinə təqdim edilmişdir.




Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Naxçıvan Musiqi Kollecinin direktoru Məhəbbət Babayevanın "Xarici ölkələrin musiqi ədəbiyyatı" və kollecin müəllimi, Prezident mükafatçısı Sevinc Babayeva ilə birlikdə yazdığı "Rus musiqi ədəbiyyatı" kitabları dünya musiqi mədəniyyətinin nailiyyətlərini öyrənmək baxımından əhəmiyyətli hədiyyədir. Həmin kitablarda istər rus, istərsə də Avropa bəstəkarlarının yaradıcılıqlarına xas xüsusiyyətlər izah olunmuş, dünya musiqi mədəniyyəti tarixində aparıcı rol oynayan bəstəkarların yaradıcılığındakı yenilikçi cəhətlərə nəzər salınmış, hər bir bəstəkarın üslub və yazı texnikası, onların musiqili əsərləri, bu əsərlərdəki bədii məziyyətlər ardıcıl şəkildə oxucuların diqqətinə çatdırılmağa çalışılmışdır.

Məhəbbət Babayevanın "Xarici ölkələrin musiqi ədəbiyyatı" kitabındakı mövzular əhatəli şəkildə şərh olunur. Onlar həm xronoloji baxımdan, həm də musiqi mədəniyyətinin bütün tarixi inkişaf mərhələlərində meydana gələn cərəyanlara xas spesifik cəhətlərin təsvir olunması istiqamətində maraqlı ardıcıllıqla sıralanır.

"Xarici ölkələrin musiqi ədəbiyyatı" kitabı dörd fəsildən ibarətdir. Birinci fəsildə intibah dövründə musiqi mədəniyyəti tarixində baş verən yenilənmə mərhələsinə nəzər salan müəllif bu dövrdə əzəmətli musiqili dram-operanın yaranması prosesi barədə ətraflı məlumat verir, intibahla klassisizm dövrünü bir-birinə bağlayan Barokko dövrünün məşhur bəstəkarlarının yaradıcılığında formalaşan yenilikçi ideyalara diqqət çəkir, dahi alman bəstəkarı İ.S.Baxın yaradıcılığı haqqında ətraflı bəhs edir.

İkinci fəsildə klassisizmin ilk bəstəkarlarından K.V.Qlyuk, Vyana klassik məktəbi və onun üç böyük nümayəndəsi – İ.Haydn, V.A.Motsart, L.V.Bethovenin yaradıcılıq irsi araşdırılır.

Digər fəsildə L.V.Bethovenin əsərlərində ilk rüşeymi atılan Avstriya bəstəkarı F.Şubertin yaradıcılığı ilə yeni dövr olaraq qiymətləndirilən romantizm, ona xas xüsusiyyətlər və bu cərəyanın dahi sənətkarları, onların musiqi mədəniyyəti tarixinə bəxş etdiyi musiqili əsərlərdən danışılır.




Sonuncu fəsildə XIX əsrin sonuna doğru formalaşan və özündə yeni çağın ilk elementlərini daşıyan impresionizm və onun iki dahi nümayəndəsi K.Debüssi və M.Ravelin yaradıcılıq yolu diqqətdən keçirilir.

"Xarici ölkələrin musiqi ədəbiyyatı" kitabında diqqətçəkən məqamlardan biri ayrı-ayrı musiqi cərəyanlarının, onların formalaşması və bu prosesə təsir göstərən amillərin işıqlandırılmasıdır. Müəllif kitabda ardıcıl olaraq musiqi cərəyanları haqqında məlumat verir, "Fransız altılığı"na daxil olan bəstəkarların əsərlərində yaranan yeni cəhətlər və bu bəstəkarların yaradıcılığı irsi haqqında danışır.

Kitabda Azərbaycanın yaradıcı insanları Vaqif Mustafazadə, Rafiq Babayev, müasir bəstəkarlardan milli musiqimizi dünya musiqi mədəniyyətində layiqincə təmsil edən Firəngiz Əlizadədən, rok və pop musiqisi haqqında bəhs edilməsi təqdirəlayiqdir.

"Rus musiqi ədəbiyyatı" kitabının I və II cildlərində XIX əsrin I yarısından etibarən, demək olar ki, rus musiqi mədəniyyətinin bütün inkişaf mərhələləri, rus klassik musiqisinin banisi M.İ.Qlinka, onun davamçısı A.Darqomıjski, "Qüdrətli dəstə" bəstəkarları və onların yaradıcılıqlarındakı özünəməxsus cəhətlər şərh olunur. M.İ.Qlinkanın rus musiqi mədəniyyəti tarixində oynadığı əzəmətli roldan danışan müəlliflər "Qüdrətli dəstə" bəstəkarlarının musiqi fəaliyyətində M.İ.Qlinka yaradıcılığının izlərindən bəhs edirlər. Diqqətəlayiqdir ki, kitabda bəhs olunan bütün bəstəkarların fotoşəkilləri də verilib, hər əsərə aid not nümunələri yer alıb. Bu not nümunələri də əyani vəsait kimi dəyərlidir.

*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunan kitabların təkcə peşəkar musiqiçilər deyil, eyni zamanda musiqi mədəniyyəti və onun inkişaf mərhələləri ilə maraqlanan bütün oxucular üçün də maraqlı olacağına inanırıq.*

**Səmirə HÜSEYNOVA**
***Naxçıvan Musiqi Kollecinin müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

### İtmişdir

Şərur şəhəri, Heydər Əliyev prospekti ev 41, mənzil 1 ünvanında yaşayan Həşimov Qafil Həşim oğlunun adına verilmiş 102011000006-05101-093007 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayon Kərimbəyli kənd sakini Hüseynov Kirman Alı oğlunun adına olan JN-0039 inventar nömrəli, 10308018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Həsənəliyev Ruslan Nurəddin oğlunun adına olan kiçik gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Ayhan Rövşən oğlunun adına olan gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib: Muxtar MƏMMƏDOV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 731